31/32 (1338) 8-21 avqust 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ BƏZİ QONŞU DÖVLƏTLƏR ÜÇÜN DƏ BİR NÜMUNƏDİR”

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edərkən deyib.

Dövlətimizin başçısı iki ölkənin siyasi rəhbərliyi arasında qəbul olunmuş qərarların, məhz “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamənin müddəalarının uğurla həyata keçirilməsini məmnunluqla qeyd edib.

Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyən Prezident İlham Əliyev bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirib.



## “RUSİYA AZƏRBAYCANLA ERMƏNİSTAN ARASINDA MÜNASİBƏTLƏRİN NORMALLAŞMASI PROSESİNİ DƏSTƏKLƏYİR”

Bunu Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu avqustun 6-da Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olarkən deyib.

Sergey Şoyqu ölkələrimiz arasında regional təhlükəsizlik, hərbi-texniki, nəqliyyat, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb.

O, ikitərəfli əməkdaşlığın gündəliyində çox mühüm məsələlərin durduğunu və onların uğurla həll edildiyini deyib. Bu xüsusda Şimal-Cənub dəhlizinin həyata keçirilməsini bunun nümunəsi kimi dəyərləndirdi və bununla bağlı üçtərəfli əsasda böyük işlərin görüldüyünü qeyd edib.

Sergey Şoyqu ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyini bildirib.

* * * * *

Görüşdə “3+3” formatında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Söhbət zamanı Ümummilli Lider Heydər Əliyevin xatirəsinə Rusiyada göstərilən ehtirama toxunularaq, Baykal-Amur Magistralının tikintisində Ulu Öndərin böyük rolu bir daha qeyd edilib, Prezident İlham Əliyevin bu ilin aprelində Moskvada Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə keçirilən tədbirdə iştirakının əhəmiyyəti vurğulanıb.

## Enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə üçtərəfli görüş keçirilib



Energetika nazirinin müavini Orxan Zeynalovun rəhbərlik etdiyi nümayəndə heyəti Astana şəhərində keçirilən Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin birinci iclasında, həmçinin Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə üçtərəfli görüşdə iştirak edib.

Nazirlikdən bildirilib ki, hər iki tədbirdə çıxış edən nazir müavini ölkələr arasında tərəfdaşlıq münasibətlərinin inkişaf perspektivləri ilə bağlı dövlət başçılarının siyasi iradələrinin ikitərəfli və çoxtərəfli əməkdaşlığın dərinləşməsi üçün geniş imkanlar açdığını vurğulayıb, COP29 çərçivəsində yaşıl enerji keçidi ilə bağlı qlobal təşəbbüslər və yüksək səviyyəli tədbirlərin planlaşdırıldığı, bu çərçivədə “Mərkəzi Asiya və Azərbaycan Enerji İnvestisiyaları Forumu”nun keçiriləcəyi qeyd edilib.

Tədbirdə “Azərbaycan-Mərkəzi Asiya-Avropa” yaşıl enerji dəhlizinin yaradılması üzrə görülən işlər və atılacaq növbəti addımlar müzakirə olunub.

Sonda Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə üçtərəfli görüşün protokolu imzalanıb.

## “CAVANŞİR” KÖRPÜSÜNÜN YERİNDƏ ŞƏHƏR ƏHƏMİYYƏTLİ YENİ AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İŞLƏRİ HƏYATA KEÇİRİLİB



Avqustun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonu ərazisində “Cavanşir” körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin “Azəryolelmitədqiqatlayihə” İnstitutunun direktoru Azər Nemətli dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədilə Xətai rayonu ərazisində Üzeyir Hacıbəyli küçəsində yerləşən və uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş, uzunluğu 202 metr, eni 17,3 metr təşkil edən 12 aşırımlı “Cavanşir” körpüsü sökülərək, yerində şəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi işləri həyata keçirilib. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir.

Məlumat verilib ki, həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb.

Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb, münbit torpaq qatı verilərək yeni yaşıllıq əraziləri salınıb, ən müasir işıqlandırma sistemi yaradılıb.

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Avqustun 5-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

Əvvəlcə Komissiyanın avqustun 3-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə beynəlxalq müşahidə missiyası təmsilçilərinin və maraqlı subyektin özünün də bilavasitə iştirakı ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətə baxılıb. Komissiya üzvlərinin geniş müzakirəsindən sonra müraciətin təmin olunmasına və namizədliyin imtinası ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarının ləğv edilərək, şəxsin Milli Məclisə seçkilərdə namizədliyinin qeydə alınmasına qərar verilib.

Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasda, həmçinin Milli Məclisə seçkilərlə əlaqədar ardıcıl, sistemli və intensiv davam edən ümumrespublika miqyaslı maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verilib, proseslərin gedişinə dair statistik göstəricilər diqqətə çatdırılıb və cari məsələlərə baxılıb.

## “950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb”

Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1508 nəfər müraciət edib. 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib.

Bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 5-də keçirilən iclasında söyləyib.

“Deputatlığa namizədliyini irəli sürənlərdən 1420 nəfəri imza vərəqəsi alıb, 1197 nəfər isə imza vərəqələrini qaytarıb, 950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb”, - deyə MSK sədri vurğulayıb.

O, bildirib ki, işğaldan azad olunmuş ərazilərdə 55 məntəqə yaradılıb.

Məcburi köçkünlər 574 məntəqədə səs verə biləcəklər. Onların sayı isə 399 min 56 nəfərdir.

## Parlament seçkilərində seçkiqabağı təşviqat üçün ümumilikdə 5113 yer ayrılıb



2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerlərinin siyahısı açıqlanıb. Siyahıda Milli Məclisə növbədənkənar seçkilərdə qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün 3259 açıq, 1854 qapalı olmaqla, ümumilikdə 5113 yerin ayrıldığı göstərilib.

## Azərbaycandan keçən ixrac dəhlizləri Mərkəzi Asiyadan Avropaya yaşıl enerji nəqlinə imkan verəcək

“Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında enerji sahəsində əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli formatda səmərəli inkişaf edir”.

Bu barədə Astanada Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin birinci görüşündə Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalov məlumat verib.



Nazir müavini qeyd edib ki, 2023-cü ilin avqustunda Özbəkistan Respublikası Prezidentinin Azərbaycana səfəri çərçivəsində enerji sektorunda əməkdaşlığın daha da dərinləşdirilməsinə dair Hökumətlərarası Saziş və iki ölkənin energetika nazirlikləri arasında “2023-2025-ci illər üçün enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Yol Xəritəsi” imzalanıb.

Nazir müavini vurğulayıb: *“İmzalanmış sənədlər çərçivəsində həm neft-qaz sahəsində, həm də bərpa olunan enerji mənbələri üzrə uğurlu əməkdaşlıq davam edir. Neft məhsullarının qarşılıqlı ticarəti üçün “Turan Energy” adlı birgə müəssisə yaradılıb, neft-qaz layihələrində qarşılıqlı iştirak məsələsi də nəzərdən keçirilir”.*

Qazaxıstanla energetika sahəsində əməkdaşlıqdan danışan nazir müavini ötən ilin mart ayından qazax neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinin bərpa olunduğunu vurğulayıb. O əlavə edib: *“Bu əməkdaşlığın müsbət dinamikası perspektivdə neftin nəqli səviyyəsini yüksəltməyə imkan verir”.*

## Qazaxıstan Azərbaycanla yaşıl enerjinin inkişafı və nəqli sahəsində qlobal layihəni həyata keçirməyə başlayır

“Qazaxıstan Azərbaycan və Özbəkistanla yaşıl enerjinin inkişafı və nəqli sahəsində qlobal layihəni həyata keçirməyə başlayır”.

Bu barədə Astanada Mərkəzi Asiya dövlətləri energetika nazirlərinin birinci görüşündə Qazaxıstan Respublikasının energetika naziri Almasadam Satkaliyev məlumat verib.

Nazirin sözlərinə görə, Mərkəzi Asiya ölkələri energetika resurslarının tədarükündə qlobal pozulmalar, neft və qaz qiymətlərində qeyri-sabitlik və başqa amilləri meydana gətirən çağırışlarla üzləşir.

Almasadam Satkaliyev təklif irəli sürüb: *“Enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün bu çağırışları qabaqcadan görmək və idarə etmək mexanizmlərini hazırlamaq, habelə ölkələrimiz arasında əməkdaşlığı gücləndirmək lazımdır”.*

O, həmçinin həmkarlarını enerji resursları üzrə ticarət imkanlarını genişləndirmək yolu ilə əməkdaşlığı gücləndirməyə, karbon neytrallığına nail olmağa və enerjinin mərhələli keçidini, habelə aşağı karbon sektorunun inkişafını təmin etməklə əlaqələri möhkəmləndirməyə çağırıb.

A.Satkaliyevin sözlərinə görə, qaz sənayesində birgə layihələrin həyata keçirilməsi imkanları da geniş şəkildə araşdırılmalıdır.

## Sosial sığorta haqları üzrə daxilolmalar 305 milyon manatdan çox artıb



Muzdlu işçi sayının və əməkhaqqı fondunun “ağarması” prosesi şəraitində cari ilin yanvar-iyul ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3,3 milyard manata çatıb.

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz və ya 305,2 milyon manata yaxın artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2023-cü ilin eyni dövrünə nisbətən 13,1 faiz artaraq 2,1 milyard manatdan çox olub.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz artaraq 118,2 milyon manat təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 15,2 faiz artıb və 88,2 milyon manatdan çox olub.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar isə 2023-cü ilin yanvar-iyul aylarına nisbətən 8 faiz artaraq 578,9 milyon manata çatıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,2 faiz artıb və 406,5 milyon manatdan çox olub.

## Auditorlar Palatasının nümayəndə heyəti Pakistanda işgüzar səfərdədir

Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Farrux Rahmanın dəvətilə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzovun rəhbərlik etdiyi nümayəndə heyətinin Pakistan İslam Respublikasının Karaçi şəhərində ICAP tərəfindən “Rəqəmsallaşma sahəsində mükafatların təqdim edilməsi” üzrə 2024-cü il 2-4 avqust tarixlərində keçirilən beynəlxalq tədbirdə iştirakı qardaş ölkə auditorları ilə əlaqələrin gücləndirilməsinə öz töhfəsini verəcək.



Qurumdan verilən məlumata görə, tədbirdə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Farrux Rahman, Azərbaycanın Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, ICAP-ın vitse-prezidenti Xurşid Kotval, Şura üzvləri, Ali Latif, Asad Feroze, Aşfaq Yousuf, Saif Ullah, Pakistanın Sind vilayətinin Qubernatoru Muhamad Kamran Xan məruzələrlə çıxış ediblər. Daha sonra rəqəmsal transformasiyanın iqtisadiyyata təsiri, iqtisadi artımda, vergi inzibatçılığında şəffaflığın səmərəliliyinin təmin olunmasında rəqəmsallaşmanın və texnologiyaların artan rolu, rəqəmsal iqtisadiyyat şəraitində hesabatlılıq və audit, rəqəmsal iqtisadiyyatda konsolidə edilmiş hesabatların əsas göstəricilərinin tərtibi və təhlili, habelə rəqəmsallaşmanın auditə, mühasibat uçotuna və davamlı inkişafa təsirindən bəhs ediblər.

Vahid Novruzov “Təkmilləşən auditə ümumi baxış və rəqəmsal transformasiyaya uyğunlaşmağın əhəmiyyəti” mövzusunda çıxış edərək bildirib ki, yaşıl iqtisadiyyata və dayanıqlı inkişafa keçid maliyyə və dayanıqlılıq göstəricilərinin və ətraf mühitlə bağlı məlumatların açıqlanmasını, qarşılıqlı əlaqədə və bütövlükdə baxılmasını zəruri və təşviq edir.

Tədbirin növbəti günündə isə palatanın sədri Vahid Novruzovun və Auditorlar Palatası sədrinin müşaviri, Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri Fəqan Qarayevin iştirakı ilə hər iki ölkədə İctimai Əhəmiyyətli Qurumlarda və digər iqtisadi subyektlərdə risklərin idarəedilməsinin auditi, ƏL/TMM üzrə şəffaflıq və metodoloji proqram təminatı, kibertəhlükəsizlik, biznesin davamlılığının təmin edilməsi, şəffaf hesabatlılığın aparılması, risklərin qiymətləndirilməsi, keyfiyyətə nəzarət, kadr hazırlığı və digər mövzular üzrə təcrübə mübadiləsi aparılıb.

## SOCAR “Neft Qaz Metan Tərəfdaşlığı”na qoşulub

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) qlobal miqyasda metan emissiyalarının azaldılması sahəsində ciddi niyyətini və bu istiqamətdə elan etdiyi dekarbonizasiya hədəflərinə sadiqliyini nümayiş etdirərək, “Neft Qaz Metan Tərəfdaşlığı”na (OGMP 2.0) qoşulub.

SOCAR-dan verilən məlumata görə, bu tərəfdaşlığa qoşulmaqla SOCAR qlobal enerji sektorunda ətraf mühitin qorunması istiqamətində ən yaxşı təcrübələrin qazanılması, tətbiq olunması, habelə metan emissiyalarına dair daha ətraflı və beynəlxalq standartların tələblərinə uyğun hesabatvermə imkanı əldə edib.

“Neft Qaz Metan Tərəfdaşlığı”na qoşulma SOCAR-ın qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə verdiyi töhfənin bir hissəsi olmaqla, şirkətin uzunmüddətli dayanıqlı inkişaf strategiyasının məqsədlərinə xidmət edir.

# İtaliya Azərbaycandan təbii qaz idxalını artırıb

İtaliya Azərbaycandan təbii qaz idxalını illik hesablamada 10,5 faiz artırıb.

Bu barədə Trend-in sorğusuna cavab olaraq Avropa İttifaqının Statistika İdarəsi olan Eurostat-dan bildiriblər.

İtaliya 2024-cü ilin may ayında Azərbaycandan 488 milyon kubmetr qaz idxal edib, 2023-cü ilin may ayında isə bu göstərici 441,5 milyon kubmetr olub.

İdxalın həcmi əhəmiyyətli dərəcədə artsa da, qiyməti nəzərə çarpacaq dərəcədə ucuzlaşıb. 2023-cü ilin may ayında idxalın dəyəri 366 milyon avro olduğu halda, 2024-cü ilin may ayında bu göstərici 276 milyon avroya düşüb ki, bu da təqribən 25 faiz ucuzlaşma deməkdir.

2024-cü ilin yanvar-may ayları ərzində İtaliya Azərbaycandan 2023-cü ilin analoji dövründəki 2,6 milyard avro dəyərində 2,2 milyard kubmetrlə müqayisədə 1,35 milyard avro dəyərində 2,4 milyard kubmetr qaz idxal edib.

2023-cü ildə İtaliya Azərbaycandan ümumilikdə 4,97 milyard avro dəyərində 9,3 milyard kubmetr qaz idxal edib.

Qeyd edək ki, 2020-ci il dekabrın 31-də Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə qazın Avropaya nəqlini başladıb. Bu dəhliz Xəzər regionundan Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələrinə qazın nəqlini təmin edir.

2022-ci ilin iyul ayında Azərbaycan və Aİ Cənub Qaz Dəhlizi ilə tədarüklərin həcmini hazırki 10 milyard kubmetrdən 2027-ci ildə 20 milyard kubmetrədək artırmaq barədə razılığa gəliblər.

## Daha bir şirkət “Araz Vadisi İqtisadi Zonası”nda fəaliyyət göstərəcək

“Xanbulaq” MMC-yə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının rezidenti statusu verilib.

İqtisadiyyat Nazirliyindən Trend-ə bildirilib ki, bununla da Sənaye Parkının rezidentlərinin sayı 12-yə çatıb.

Şirkət tərəfindən Sənaye Parkının 2,5 hektar ərazisində 40 otaqlı otelin və 100 nəfərlik restoranın tikintisi nəzərdə tutulur.

İnvestisiya dəyəri 7 milyon manat olan layihə çərçivəsində 60 nəfərin işlə təmin edilməsi planlaşdırılır.



Qeyd edək ki, təkcə 2023-cü ildə Azərbaycanın sənaye parklarında İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən idarə olunan 26 sahibkarlıq subyekti rezident statusu alıb. Bunlardan 7 sahibkarlıq subyekti Ağdam Sənaye Parkının, 5-i Araz Vadisi İqtisadi Zonasının, 8-i Sumqayıt Kimya Sənaye Parkının, 3-ü Pirallahı Sənaye Parkının, 1-i Hacıqabul Sənaye Məhəlləsinin, 2-si Sabirabad Sənaye Məhəlləsinin rezident statusu alıb.

Hazırda agentlik 6 sənaye parkı, 4 sənaye məhəlləsi, 51 aqropark və peşə hazırlığı mərkəzini idarə edir.

# “AzerGold” QSC Şərqi Zəngəzurda daha bir təzahür sahəsində axtarış-qiymətləndirmə işlərinə başlayıb



***“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən “Şorbulaq” filiz təzahürləri sahəsində axtarış-qiymətləndirmə işlərinə başlayıb. Məqsəd mövcud təzahürlərin ilkin ehtiyatlarının qiymətləndirilməsidir.***

Səhmdar Cəmiyyətin axtarış-kəşfiyyat proqramına əsasən, burada ilkin mərhələdə kameral qiymətləndirmə və məsafədən tədqiqat işləri aparılıb. Perspektivli zonaların qısa vaxtda müəyyənləşdirilməsi, yüksək vəsait tələb edən buruqqazma işlərinə qənaət edilməsi məqsədilə tədqiqatlarda qeyri-invaziv axtarış metodlarından olan hiperspektral peyk çəkilişlərindən istifadə edilir. Paralel olaraq arxiv geoloji materialların toplanması, sistemləşdirilməsi, rəqəmsallaşdırılması işləri də icra olunub. Cari il ərzində davam edəcək genişmiqyaslı axtarış-qiymətləndirmə işlərinin nəticəsinə uyğun olaraq növbəti tədqiqat mərhələsinə keçid, sahədə buruqqazma işləri ilə bağlı müvafiq qərarlar qəbul ediləcəkdir.

Qeyd edək ki, “Şorbulaq” təzahür sahəsi Kəlbəcər rayonunda, Tərtərçayın sol qolu olan Levçay çayının hövzəsində yerləşir. Təzahür sahəsində qızıl, xrom və civə metallarının olduğu proqnozlaşdırılır. Təzahür sahəsi 1958-ci ildə kəşf edilib.

Xatırladaq ki, “AzerGold” QSC tərəfindən geoloji tədqiqatlar hazırda bir neçə istiqamət üzrə aparılır. QSC-nin idarəetməsinə verilən filiz sahələri ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2023-cü il tarixli Sərəncamına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkə ərazisində ümumi geoloji axtarış işlərinin icrası davam etdirilir. Həmçinin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq QSC tərəfindən mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı, qiymətləndirilməsi kimi vacib tapşırıqlar icra edilməkdədir.

# “AzerGold” QSC-nin İşçi qrupu hasilatın pay bölgüsü haqqında Saziş çərçivəsində Gədəbəydəki mədənlərə baxış keçirib





“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında “AzerGold” QSC ilə “R.V. Investment Group Services, LLC” arasında bağlanmış saziş üzrə səlahiyyətlərinin icrası çərçivəsində ilkin tanışlıq səfərləri həyata keçirib.

Məqsəd saziş sahələrində mədənlərin idarə olunması, geoloji kəşfiyyat, hasilat, istehsalat, ətraf mühitin mühafizəsi, yerli icmalarla işin təşkili, korporativ sosial məsuliyyət və digər istiqamətlərdə fəaliyyətlə tanışlıq, əməliyyat şirkəti “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited”in (AİMK) dağ-mədən sahəsində fəaliyyətinin təkmilləşdirilməsi, Sazişin tələblərinə uyğun icrası istiqamətində təkliflərin hazırlanması, prosesə dəstək göstərilməsi və nəzarət tədbirlərinin icra edilməsidir.

Bu məqsədlə “AzerGold” QSC-nin nəzdində yaradılmış İşçi qrupu xarici şirkətin yeganə aktiv əməliyyat sahəsi olan “Gədəbəy” saziş sahəsinə səfər edib. Tanışlıq səfəri çərçivəsində əvvəlcə Səhmdar Cəmiyyət və AİMK nümayəndələri arasında görüş keçirilib, xarici operatorun fəaliyyəti, tətbiq etdiyi hasilat üsulları, istehsalat texnologiyaları və digər istiqamətlərdə görülən işlərlə bağlı məlumat əldə edilib, fəaliyyətin daha da təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Daha sonra “Gədəbəy” saziş sahəsinə daxil olan “Gədəbəy”, “Qədir”, “Zəfər”, “Uğur” və “Gilar” qızıl, gümüş, mis yataqları, həmçinin istehsalat zavodları, nəm tullantı anbarı, laboratoriya və digər infrastruktur obyektlərinə baxış keçirilib.

Məlumat verilib ki, 8 saziş sahəsində işləmək hüququna malik olan AİMK hazırda “Gədəbəy” saziş sahəsində yerləşən mədənlərdə açıq və yeraltı hasilat üsulları ilə filizçıxarma əməliyyatlarını icra edir. Hasil edilən filizlər metal tərkibindən asılı olaraq çeşidləndikdən sonra aidiyyəti üzrə rayon ərazisində yerləşən qızıl və ya mis emalı təyinatlı istehsalat sahələrində emal olunur.

Bundan başqa, İşçi qrupun üzvləri geoloji tədqiqat və istismara hazırlıq mərhələsində olan “Qaradağ”, “Qızılbulaq” və “Dəmirli” filiz yataqlarına da səfər edərək, sahələrə baxış keçiriblər.

Tanışlıq səfərləri zamanı İşçi qrupun üzvləri yekun hesabata əlavə edilməsi, Saziş üzrə tərəfdaşlıqla bağlı hazırlanacaq Tədbirlər Planında nəzərə alınması üçün müvafiq qeydlər aparıblar.

Növbəti mərhələdə isə “AzerGold” QSC tərəfindən saziş sahələrində mədən-filiz əməliyyatlarının icrası zamanı fəaliyyətin sazişin tələblərinə uyğun şəkildə təşkil edilməsi üçün zəruri tədbirlər görüləcək, eyni zamanda xarici şirkətin hökumət orqanları ilə əməkdaşlığına dəstək göstəriləcək.

Eyni zamanda saziş sahələrində mütəmadi monitorinq işləri həyata keçiriləcək.

# Dövlət Neft Fondunun “Şahdəniz”dən əldə etdiyi gəlirlər azalıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin əvvəlindən avqustun 1-dək “Şahdəniz” yatağından (qaz və kondensat) 364,465 milyon dollar gəlir əldə edib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaydığı məlumatda bildirilir ki, “Şahdəniz” yatağı üzrə gəlirlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 dəfə azalıb.

O cümlədən “Şahdəniz” yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 2,3 dəfə azalaraq 113,878 milyon dollar təşkil edib.

# “Azəri-Çıraq-Günəşli”nin builki gəlirləri açıqlanıb

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) cari ilin yeddi ayı ərzində “Azəri-Çıraq-Günəşli” (AÇG) yataq bloku üzrə gəlirləri 13,23 faiz azalıb.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaydığı məlumata görə, AÇG yatağından 2024-cü ilin əvvəlindən avqustun 1-i tarixinə 3 milyard 607,7 milyon dollar gəlir əldə olunub.

Ötən ilin müvafiq dövründə AÇG yatağından 4 milyard 158 milyon dollar gəlir əldə edilmişdi.



# Dövlət əmlakının icarəsindən büdcəyə 18 milyon manata yaxın vəsait daxil olub

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin yanvar-iyun ayları ərzində dövlət əmlakının icarəsindən büdcəyə 17,8 milyon manat vəsaitin ödənilməsi təmin edilib.

Dövlət Xidmətindən bildirilib ki, cari ildə dövlət əmlakının icarəyə verilməsi sahəsində işlər davam etdirilib. Bu ilin birinci yarımilliyi ərzində qeyri-yaşayış sahəsinə dair 308 yeni icarə müqaviləsi bağlanılıb. Bu dövrdə qeyri-yaşayış sahələrinin icarəsindən dövlət büdcəsinə 3,3 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Eyni zamanda, cari ilin yanvar-iyun aylarında 1518 torpaq sahəsinə dair yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövründə torpaq sahələrinin icarəsindən dövlət büdcəsinə 14,5 milyon manat məbləğində vəsait ödənilib.

Ümumilikdə isə qeyri-yaşayış və torpaq sahələrinin icarəyə verilməsi ilə bağlı 2024-cü ilin birinci yarımilliyi ərzində 1826 yeni icarə müqaviləsi bağlanılıb.

Ötən ilin eyni dövrü ilə müqayisədə bağlanan icarə müqaviləsinin sayı 4,88 faiz artıb.

Cari ilin yanvar-iyun ayları ərzində daşınmaz dövlət əmlakının icarəsindən dövlət büdcəsinə 17,8 milyon manat məbləğində vəsaitin ödənilməsi təmin olunub. 2023-cü ilin eyni dövrü ilə müqayisədə 11,25 faiz artım qeydə alınıb.

# İşğaldan azad edilmiş ərazilərdə “Yaşıl Kart” beynəlxalq sığorta xidməti istifadəyə veriləcək

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində “Yaşıl Kart” beynəlxalq sığorta xidmətindən istifadə mümkün olacaqdır.

İcbari Sığorta Bürosundan bildirilib ki, “Yaşıl Kart” sistemi 1949-cu ildə beynəlxalq nəqliyyatı asanlaşdırmaq və bu sistem çərçivəsində zərərlərin tənzimlənməsi üçün Birləşmiş Millətlər Təşkilatı Avropa İqtisadi Komissiyasının Yol Nəqliyyatı üzrə İşçi Qrupunun nəzdində yaradılıb. Sistemə üzv olan ölkələrdə qeydiyyata alınmış avtomobil sahibləri “Yaşıl Kart” sığortasına sahib olduğu halda sistemin digər üzv ölkələrinə səfər edərkən sığorta təminatı almış olurlar.

2016-cı ildən etibarən İcbari Sığorta Bürosu “Yaşıl Kart” sisteminin idarəedici təşkilatı olan Beynəlxalq Bürolar Şurasına üzv olub və Azərbaycanda “Yaşıl Kart” sığortası tətbiq edilməyə başlanılıb. Üzvlüyün ilk illərində Azərbaycanın işğal edilmiş ərazilərində “Yaşıl Kart” sisteminin tətbiqi mümkün olmadığı üçün, “Yaşıl Kart” sığorta təminatı Azərbaycanın digər coğrafi əraziləri ilə məhdudlaşdırılmışdı.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra İcbari Sığorta Bürosu tərəfindən “Yaşıl Kart” təminatı üzrə Azərbaycana münasibətdə coğrafi ərazi məhdudiyyətinin aradan qaldırılması ilə bağlı Beynəlxalq Bürolar Şurasına müraciətlər ünvanlanıb. Aparılan qarşılıqlı əməkdaşlıq və səylər nəticəsində ölkəmizdə bu xidmətin verilməsi üçün tətbiq edilən ərazi məhdudiyyətinin aradan qaldırılmasına nail olunub.

Belə ki, London şəhərində keçirilmiş BŞ-nin 58-ci Baş Assambleyasının Qərarı ilə “Yaşıl Kart” sisteminin “Coğrafi əhatə dairəsinin siyahısı və avtomobil sığortası direktivi”nin ərazi tətbiqinə dair sənədləri yenilənərək təsdiqlənib. Bununla da, Azərbaycanla əlaqəli coğrafi ərazi məhdudiyyəti aradan qaldırılıb və İcbari Sığorta Bürosunun coğrafi səlahiyyəti ölkənin Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində yenidən müəyyən olunub.

# ABŞ Energetika Nazirliyi Azərbaycanda 2025-ci il üçün neft hasilatı ilə bağlı proqnozunu endirib

2025-ci ildə Azərbaycanda neft hasilatı gündəlik 0,65 milyon barel olacaq.

ABŞ Enerji İnformasiya İdarəsi (EIA) ölkədə neft hasilatı ilə bağlı proqnozuna düzəliş edərək əvvəlki qiymətləndirmə ilə müqayisədə gündəlik 0,01 milyon barel endirib. İdarənin məlumatlarına görə, Azərbaycanda neft hasilatı 2024-cü ildə gözlənilən gündəlik 0,61 milyon bareldən gündəlik 0,04 milyon barelə qədər artacaq.

Xüsusən, 2025-ci ilin birinci rübündə ölkədə neft hasilatı gündəlik 0,63 milyon barel olmaqla, ikinci rübdə gündəlik 0,65 milyon barelə qədər artacaq. EIA gələn ilin üçüncü və dördüncü rüblərində hasilatın 0,67 milyon barrelədək artacağını gözləyir.

EIA-nın proqnozuna görə, 2024-cü ildə Azərbaycanda neft hasilatı üçüncü rübdə gündəlik 0,61 milyon barelə çatacaq və dördüncü rübdə gündəlik 0,62 milyon barel səviyyəsində sabitləşəcək.

# Zəif təhsil ağıllı texnologiyaları bloklayır

*“Hər bir ölkədə problemlər var, o cümlədən də Azərbaycanda. Əsas məsələ ondadır ki, bu problemlər öz həllini necə tapır və hökumətin niyyəti nədən ibarətdir?*

*Prezident İlham ƏLİYEV*

Bu problemlərin həlli üçün ölkə prezidenti daim vətəndaşları ictimai nəzarəti gücləndirməyə çağırır. Mövcud problemlərin həlli üçün səmərəli ictimai nəzarət mexanizmləri yaradılmalı və tətbiq edilməlidir. Bu işdə ictimaiyyətin, xüsusən də mütəxəssislərin fəallığı mühümdür.



Hesab edirik ki, ictimai nəzarət təhsil sektorunda daha da güclü olmalıdır. Çünki ölkənin strateji baxımdan ən mühüm nazirliyi ETN-dir. Təhsil olmasa, heç bir sahədə uğur mümkün deyil, yəni təhsil olmasa heç nə ola bilməz. Bütün bu səbəblərə görə təhsildə hər bir müəllim və valideyn ictimai nəzarətdə fəal olmalıdırlar. Amma müvafiq dövlət qurumları da ictimai nəzarətin aşkar etdiyi nöqsanlara reaksiya verməlidir. Təklifləri nəzərə almalıdır.

E.Əmrullayev: ***“Mənə problemlərdən danışın, məişət mövzusunda söhbətlər lazım deyil”***

Yaxşı fikirdir. Amma bu 4 ildə mütəxəssislərin qaldırdığı hansısa problemlərə və ya təkliflərə ETN-in reaksiya verdiyini görmədik. 4 ildə mətbuatda təhsilə dair qaldırılan problemlərin 20%-nə ETN reaksiya versəydi, tənqidə sağlam münasibət bəsləsəydi, təhsilin durumu indi daha yaxşı olardı. Əks halda ictimai nəzarətin nə faydası ola bilər? Xüsusən də komandanın peşəkarlıq səviyyəsi, iş təcrübəsi əgər arzu edilən səviyyədə deyilsə.

E.Əmrullayev: ***“Təhsil olmasa, innovasiya olmaz”.***

Məlum olduğu kimi, keçən il biz innovasiyaların yaradılmasına 2 milyon $, Ermənistan isə 120 milyon $ investisiya qoymuşdu.

Ölkə səviyyəsində toplam olaraq 2 milyon $ investisiya ilə hansı innovativ inkişafdan danışa bilərik? Bu səbəbdən də innovativ inkişaf üzrə qlobal reytinqlərdə son yerlərdəyik.

Əgər biz məhdud imkanlardan rasional istifadə edə bilsək, bu qədər geri qalmazdıq.

Bu gün elm, təhsil, innovativ inkişafa investisiya tapa bilməsək də, bu sahənin inkişafına məsul olan qurum- ETN təhsilə yox, sahibkarlığın, özəl sektorun inkişafına bu ərəfədə 3,5 milyon investisiya etməyə hazırlaşır, bu məqsədlə xüsusi qrant müsabiqəsi də elan edib. Bu məbləğ ölkəmizin innovativ inkişafa 1 ildə qoyduğu investisiyadan 1,7 dəfə çoxdur.

Təhsildə illər ərzində həll edilməyən bu qədər problemlər olduğu halda, ETN məhdud imkanları niyə elm və təhsilə yox, sahibkarlığın inkişafına yönəltməlidir? ETN-in əsasnaməsində sahibkarlığın inkişafına dair hər hansı bir maddə varmı?

Ölkədə sahibkarlığın inkişafına məsul olan qurum KOBİA 5 ildə biznesin inkişafına ayırdığı qrantların toplam məbləği ETN bir müsabiqədə ayırdığı məbləğdən 2 dəfə azdır. Belə çıxır ki, ETN təhsildən çox, sahibkarlığın inkişafı qayğısına qalır? ETN-nin belə maliyyə siyasəti və idarəetmə metodları ilə ölkədə təhsil, elm, innovasiya, ağıllı texnologiyalar yaradıla bilməz. Hər halda çox da xoş olmayan 30 illik təcrübə var ortalıqda.

Bu gün bir çox ölkələrdə ağıllı texnologiyalar tətbiq edilir, “ağıllı şəhər”, “ağıllı kənd”lər yaradılır. Bu ölkələrdə elm və təhsilin, əhalinin savad səviyyəsi bu texnologiyalara uyğundur. Təhsili zəif olan ölkələrdə vəziyyət fərqlidir. Bu ölkələrdə “Ağıllı kənd” yaratmaqla paralel “Ağıllı təhsil”, “Ağıllı vətəndaş” layihələri də yaratmaq lazımdır. Əks halda təhsilin aşağı səviyyəsi ağıllı texnologiyaların tətbiqini bloklayır. Vətəndaş oxuduğunun 60%-ni dərk etmirsə, ölkədə əvvəl savadsızlığı ləğv etməliyik, yoxsa smart layihələr yaratmaq və tətbiq etmək mümkün deyil.

Dünyada ixtira və patentlərinin sayına görə lider ölkələr və onların kreativ vətəndaşları da az deyil, onların təcrübəsini öyrənməliyik. Məsələn, yapon ixtiraçısı Yesimiro Nakamasu həyatı boyu 3357 sayda patent alıb. Bu qədər ixtiranı biz ölkə olaraq heç 100 ildə yaratmamışıq. Bir yapon bizim 50 universitetimiz və 50 elmi tədqiqat insitutumuzdan dəfələrlə məhsuldar olub. 1980-2000-ci illərdə ərəb ölkələri 460, İsrail 7500, C.Koreya 16.000 patent qazanıb. İslam ölkələri ortalama olaraq elmə öz ÜDM-inin 0,8%, İsrail 4,4%, ABŞ 3%-ini sərf edib. Son illər Çinin də bu sahədə çox ciddi nailiyyətləri var.

Biz elmə ÜDM-in 0,2% qədərini sərf edirik. Bu büdcə ilə AMEA təbii ki, inkişaf edə bilməzdi.

Əgər elmə münasibət belə davam edəcəksə, onda ya AMEA olsun, ya ETN olsun, fərq etməz, heç nə dəyişməz, xüsusən də əldə olan az imkanlar səmərəsiz istifadə edilirsə.

**Dos. İlham Əhmədov**
**ADPU**

# Dr.Aynurə Əliyeva: “Görmə problemi olan uşaq sadəcə olaraq oxumağı sevməyəcək, məktəbdə olmaq ona bir yük olacaq”

***8 avqust Beynəlxalq Oftalmoloqlar Günüdür. Həmin gün 2004-cü ildən qeyd olunur.***

Beynəlxalq Oftalmoloqlar Gününün məhz avqustun 8-i seçilməsi göz cərrahiyyəsi sahəsində çox böyük uğurlara imza atmış böyük rus oftalmoloqu Svyatoslav Fyodorovun doğum günü ilə əlaqədardır.

Beynəlxalq Oftalmologiya Gününün təsis edilməsi ideyası Sankt-Peterburq şəhər Tibb Palatasının prezidenti Tamaz Mçelidzeyə məxsusdur. O, həmin gün rus və xarici ölkə oftalmoloqlarına göz xəstələrinə təmənnasız məsləhətlər vermək, göz nurunu itirənlər və ya görmə qabiliyyəti zəif olanların müalicəsi üçün əməliyyatlar aparmaq barədə müraciət edib. Belə bir tədbirin keçirilməsi məşhur göz cərrahı S.Fyodorovun başladığı xeyriyyə işinin davam etdirilməsi və xatirəsinin yad olunması məqsədi daşıyır.

Göz elə bir orqandır ki, onun fəaliyyətinin pozulması insan üçün əsl faciədir. Görmə qabiliyyətinin pisləşməsi insanlarda bir çox fiziki və psixoloji problemlər yaradır. Oftalmoloqlar məhz sağlamlığın bu vacib məsələlərinin həlli ilə məşğul olurlar.

Azərbaycanda korluğun və görmə üzrə əlilliyin profilaktikası, əhaliyə oftalmoloji yardım daim dövlətin diqqətindədir. Bu gün Azərbaycanda oftalmologiyanın inkişafından danışarkən milli oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan böyük alim, yüksək intellekt sahibi, SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.Averbax adına mükafat almış ilk azərbaycanlı, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor Zərifə Əliyevanın adını çəkməmək mümkün deyil. Zərifə Əliyeva Azərbaycanda milli oftalmologiya məktəbi yaratmışdır ki, hazırda onun yetirmələri bu işi layiqincə davam etdirərək, hər il minlərlə insana şəfa verirlər.

Dərs ilinin başlanmasına hələ bir aydan da çox vaxt var. Əyləncəli yay günləri bir anda ötüb keçəcək və məktəblər qapılarını uşaqlarımızın üzünə açacaq.

Dərs ilinin başlanğıcı hər bir valideyn üçün narahatlıqlar və qayğılar dövrüdür. Görüləsi o qədər iş var... Ancaq bu tələşda bir vacib məqamı yaddan çıxarmaq olmaz: oftalmoloqa gedib uşağınızın görmə qabiliyyətini yoxlatmağın əsl vaxtıdır.

**Hər bir valideyn övladının sağlamlığının qayğısına qalmalı və onun görmə qabiliyyətini əvvəlcədən yoxlamalıdır ki, adətən stress və gərginliklə dolu olan dərs ilində hansısa formada bir problem ortaya çıxmasın.**

*Beynəlxalq Oftalmoloqlar Günü ərəfəsində Mərkəzi Gömrük Hospitalının Poliklinika şöbəsinin oftalmoloqu, t.ü.f.d. Aynurə Əliyevanın məktəbdən öncə uşaqların göz müayinəsindən keçməsinin səbəbləri və əhəmiyyəti barədə müsahibəsini Sizə təqdim edirik.*




**- Aynurə həkim, məktəbdən öncə göz müayinəsindən keçmək nəyə lazımdır?**

- Bütün məktəb yaşlı uşaqlar üçün hər il oftalmoloq müayinəsi mütləqdir. Tədris ili ərzində gözlər görmə problemlərinə səbəb ola biləcək böyük stress və gərginliklər yaşayır. Daimi diaqnostika pisləşməni vaxtında aşkar etməyə və onu vaxtında düzəltməyə kömək edəcəkdir.

Dərslərdə qazanılan uğurların 80%-i informasiyanı vizual şəkildə qəbul etmək bacarığından asılıdır. Yer üzündə hər dörd uşaqdan birində dərslərdə uğur qazanmağa mane olacaq qədər ciddi görmə problemləri var. Bunlar oxumaqda və ya diqqəti cəmləşdirməkdə çətinliklər yaradır.

Miopiyalı (miopiya – görmə defektidir. Bu zaman insan yaxını yaxşı görsə də, uzağı pis görür) uşaqlar lövhədəki qeydləri yaxşı görmürlər və müəllimin onlara göstərdiklərini izləmək çətin olur.

Uzaqdan görmə uzaq obyektlərin daha yaxşı göründüyü, lakin yaxın obyektlərin zəif göründüyü görmə qüsurudur. Uzaqgörən uşaqlar oxumaqda və ya yaxın iş görməkdə çətinlik çəkirlər. Bundan əlavə, bəzi növ göz xəstəlikləri erkən aşkarlanmazsa və müalicə olunmazsa, qalıcı görmə problemlərinə səbəb ola bilər. Görmə problemi olan uşaq çox güman ki, sadəcə olaraq oxumağı sevməyəcək. Məktəbdə olmaq onun üçün bir yük olacaq.

Problemlərdən biri də ondan ibarətdir ki, valideynlər heç də həmişə övladlarının görmə qabiliyyətinin pozulmasının fərqinə varmırlar. Uşaq yaxşı görmək üçün gözünü qıyır, ekrana yaxınlaşır və ya kitab tərəfə əyilərək görmə çatışmazlığını kompensasiya etməyə çalışır. Gündəlik həyatda bu tövsiyələr kifayət qədər faydalıdırsa, məktəbdə görmə yükü kəskin şəkildə artdıqda və sistematik hal aldıqda, görmə qabiliyyəti zəif olan bir uşağın siniflə ayaqlaşması çətinləşir.

**- Uşaqlarda görmənin zəifləməsinin səbəbləri barədə nə deyə bilərsiz?**

- Məktəblilərdə görmə qabiliyyətinin azalmasının səbəbləri çoxdur. Məsələn, bir uşaq günün çox hissəsini kompüter arxasında keçirirsə, planşetdən, mobil telefondan çox istifadə edirsə, fiziki aktiv deyilsə, arxa və boyun əzələləri zəifdirsə, gündəlik rejimi pozulubsa, yuxu rejiminə riayət etmirsə (lazımi qədər yuxusunu almırsa), əlbəttə ki, onun görmə qabiliyyəti zəifləyəcək. Daha bir səbəb də irsi meyillilikdir.

***Baxın, məktəbli əşyaları:*** istər dəftər olsun, istərsə də telefon və ya kompüterin monitoru – daha yaxından izləməyə məcburdur. Bu tip yüklənmələr zamanı göz əzələləri zəifləyir və uşaq artıq bütün predmetləri dəqiq görə bilmir. Bu gün hər beşinci məktəblidə miopiya diaqnozu var.

**- Bəs görmə qabiliyyətini necə qorumaq olar?**

- Vaxtında aşkar edilmiş pozuntular uğurla aradan qaldırıla bilər. Bunun üçün həyəcanverici simptomlar gördükdə oftalmoloqa müraciət etmək, müntəzəm olaraq həkim müayinəsindən keçmək, həkimin bütün tövsiyələrinə əməl etmək vacibdir.

Oftalmoloqun müayinəsi aşağıdakıları əhatə edir: görmə itiliyinin təyini, göz optikasının ölçülməsi, biomikroskopiya (xüsusi mikroskopdan istifadə etməklə göz toxumasının müayinəsi), göz dibi təzyiqinin ölçülməsi.

Müayinənin nəticələrinə əsasən, həkim eynək və ya kontakt linzaları seçir, müalicə planını və müəyyən edilmiş pozuntuların düzəldilməsi sxemini tərtib edir. Lazım gələrsə, həkim uşağın hansı partada oturmasının daha yaxşı olduğunu göstərən arayış da verə bilər.

Göz müayinələri hər il aparılmalıdır, bu qayda xüsusilə eynək taxan uşaqlara aiddir. Məsələ burasındadır ki, məktəblilərin əksəriyyətində dərs ilinin əvvəlində görmə zəifliyi müşahidə olunur, ona görə də onlar yeni eynək seçməlidirlər. Oftalmoloqa səfərinizi avqustun son günlərinə qədər təxirə salmayın - uşağınızın yeni eynəyə alışması üçün əvvəlcədən həkimə baş çəkmək daha yaxşıdır.

**- Maraqlı müsahibəyə görə təşəkkür edirik.**



**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Türkiyə Prezidenti sosial şəbəkələrin rəhbərliyini ittiham edib




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələri kəskin tənqid edərək, həmin onlayn platformalara sahib olan şirkətləri ikili standartlarda və “rəqəmsal faşizm”də ittiham edib.

Sosial şəbəkələrin ünvanına tənqidi Türkiyə lideri bu gün Ankarada hakim Ədalət və İnkişaf Partiyasının funksionerləri qarşısında çıxışı zamanı səsləndirib.

Onun sözlərinə görə, sosial şəbəkələrə sahib olan şirkətlərin maraqlarına toxunulan an onlar “mafiya strukturları” taktikasını seçirlər.

“Bu münasibət bizim üçün yeni bir şey deyil. Biz Türkiyədə sosial media platformalarında oxşar münasibətlə tez-tez qarşılaşmışıq. Türkiyə tərəfinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, bu xətt bu gün də davam edir”, - deyə Ərdoğan bildirib.

Prezident FETÖ və PKK kimi terror təşkilatlarının sosial mediada davam edən təbliğatına diqqət çəkib. Siyasətçi vurğulayıb ki, söz azadlığı bəhanəsi ilə terrorçuları müdafiə etmək yolverilməzdir.

Türkiyənin dövlət başçısı qeyd edib ki, sosial şəbəkələr həm də ümumbəşəri və dini dəyərlərə qarşı təhqir və hücum platformasına çevrilib. ***“Yalanlar, təxribatlar və təhriklər bu platformaların ən xarakterik xüsusiyyətləri olub”***, - deyə o bildirib.




**Azəri Light markalı neftin bir barelinin 1- 7 avqust tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**